*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 27 aprel 2016-cı il | № 31 (2046) | Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib

***Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olub.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilib. Ötən ilin iyulunda Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

"İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb. Odur ki, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakı şəhərində yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, xalqımızın tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyətli rola malikdir.

Forumun açılışında nitq söyləyən Prezident İlham Əliyev qonaqları salamlayaraq belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin böyük şərəf olduğunu, ölkəmizin multikulturalizm dəyərlərini uğurla yaydığını dedi. Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansının yaradılması təşəbbüsü ilə çıxış etdiklərinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və İspaniyanın keçmiş Baş naziri Xose Luis Rodrigez Sapateroya təşəkkür etdi. "Azərbaycan əsrlər boyu mədəniyyətlər və dinlərin qovuşuğunda yerləşib, ölkəmiz Şərq ilə Qərb arasında mədəni körpü rolunu oynayıb", - deyən Prezident İlham Əliyev tolerantlığın və multikulturalizmin Azərbaycanda hər zaman hökm sürdüyünü, bunun bizim böyük zənginliklərimizdən biri olduğunu və bu tarixin bizi fərəhləndirdiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, 743-cü ildə ən qədim məscidlərdən biri Şamaxıda tikilib, torpağımızda qədim Alban kilsələri olub. Bu gün ölkəmizdəki məscidlər, katolik və pravoslav kilsələri təmir olunur və qorunur. Bu da onu göstərir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir.

Prezident İlham Əliyev bildirdi ki, 2008-ci ildə Azərbaycanın irəli sürdüyü təşəbbüslə Bakıda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının bir çox tədbirləri baş tutub. Ötən il ilk Avropa Oyunları keçirilib, gələn il isə paytaxtımız İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcək.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun multikulturalizm dəyərlərinin təzahürü olduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, dünyanın siyasi xadimləri bu müsbət dinamikaya dəstək verməlidirlər. Azərbaycanın bir çox beynəlxalq təşkilatlarda fəal iştirak etdiyini, 2011-ci ildə ölkəmizin 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyini deyən dövlətimizin başçısı ötən dövrdə Azərbaycanın müstəqil xarici siyasət yürütdüyünü, regional inkişafa töhfə verdiyini, müstəqillik illərində mühüm dövlət təsisatlarının formalaşdığını, bütün azadlıqların təmin edildiyini, siyasi və iqtisadi islahatların aparıldığını diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın ölkəmizin BMT tərəfindən tanınan ərazi bütövlüyünü pozduğunu, Dağlıq Qarabağı və ətraf rayonları işğal etdiyini dedi, xalqımızın etnik təmizləməyə məruz qaldığını, Xocalı soyqırımının törədildiyini, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini, işğal olunan ərazilərdə hər şeyin dağıdıldığını bildirdi. "Ermənistan BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması ilə bağlı qətnamələrinə məhəl qoymur", - deyən dövlətimizin başçısı vurğuladı ki, məsələnin həlli ilə əlaqədar Ermənistana beynəlxalq təzyiq göstərilməli, münaqişə beynəlxalq hüququn normaları çərçivəsində nizama salınmalıdır.

Prezident İlham Əliyev onu da dedi ki, ölkəmiz inkişaf edir. Son illərdə işsizliyin və yoxsulluğun azaldılması ilə bağlı ciddi tədbirlər görülüb, təhsil və səhiyyə problemləri uğurla həll olunub, gender bərabərliyinin təmin olunması, ekoloji problemlərin həlli istiqamətində tədbirlər həyata keçirilib. Ölkəmizin nəhəng enerji və nəqliyyat layihələrinin müəllifi və iştirakçısı olduğunu deyən Prezident İlham Əliyev çıxışının sonunda Forumun işinə uğurlar arzuladı.

**AZƏRTAC**



Müdafiə naziri Tərtərdə sakinlərlə görüşüb

3-cü səhifədə



Fərqlənən heyət

4-cü səhifədə



"Hər anımız Vətən deyir!"

5-ci səhifədə



Erməni hakimiyyətinin növbəti "soyqırım" şousu

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının katibi ilə görüşüb

**Aprelin 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan MDB Müdafiə Nazirləri Şurasının yeni təyin edilmiş katibi general-mayor Yuri Daşkin ilə görüşüb.**



Müdafiə naziri qonağa Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələr, hazırkı vəziyyət barədə ətraflı məlumat verib. General-polkovnik Zakir Həsənov düşmən tərəfindən yaşayış məntəqələrimizin və mülki əhalinin atəşə məruz qalması faktlarını xüsusi olaraq diqqətə çatdırıb.

Beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 ildən artıq erməni işğalı altında olduğunu və bunun nəticəsində bir milyondan çox soydaşımızın didərgin düşdüyünü vurğulayan Müdafiə naziri danışıqlar prosesinin nəticəsiz qaldığını deyib.

MDB-nin üzvü olan ölkələrlə hərbi sahədə əlaqələrə toxunan general-polkovnik Zakir Həsənov bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün perspektivlərin mövcudluğunu bildirib.

MDB Müdafiə Nazirləri Şurası üzv ölkələrin nazirləri ilə görüşləri çərçivəsində ilk səfərin məhz Azərbaycana olduğundan məmnunluğunu ifadə edən Yuri Daşkin Birliyin ölkələri arasında hərbi sahədə münasibətlərin genişləndirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov general-mayor Yuri Daşkinə MDB Müdafiə Nazirləri Şurasının katibi vəzifəsində və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
çavuş
Vüsal HƏMİDOVUNDUR**

General-polkovnik Zakir HƏSƏNOV:

# Düşmən təxribatlarına qarşı hər an hazır olmalıyıq

## Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib



**Aprelin 23-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, Silahlı Qüvvələr və qoşun növü komandanları, eləcə də birlik komandirlərinin iştirakı ilə xidməti müşavirə keçirilib.**

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində baş verən döyüş əməliyyatlarının nəticələri təhlil edilərək konkret tapşırıqlar qoyulub və tövsiyələr verilib. Toplantıda çıxış edən Müdafiə naziri bildirib:

"Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-həmlə zərbələri zamanı bölmələrimizin fəaliyyəti ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Dövlətimizin və xalqımızın diqqət və qayğısı sayəsində ordumuz bu uğura nail oldu.

Ermənistan 20 ildən artıqdır ki, torpaqlarımızı işğal edib və ölkəmizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməkdən əl çəkmir. Bu ölkənin cinayətkar rejimi bütün beynəlxalq norma və prinsiplərə məhəl qoymur, hər bir imkandan istifadə edərək xalqımıza qarşı təxribatlar törətməyə çalışır. Bu istiqamətdə ermənipərəst qüvvələr də ölkəmizə qarşı təzyiqlərdən çəkinmirlər. Ermənilərin dinc əhaliyə və təmas xəttindəki yaşayış məntəqələrimizə qarşı törətdiyi son əməllərinə ordumuz tutarlı cavab verdi. Vacib əhəmiyyətə malik yüksəklikləri azad edərək nəzarətə götürməklə cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrimizin təhlükəsizliyini tam təmin etmiş olduq.

Bununla belə düşmən təxribatlarına qarşı cavab tədbirləri görməyə hər an hazır olmalıyıq. Şəhid ailələrinə və yaralılara hərtərəfli diqqət və qayğı göstərilməli, onların problemləri digər icra strukturları ilə qarşılıqlı əlaqədə həll edilməlidir.

Biz bu döyüşlərdə Silahlı Qüvvələrimizin döyüş təcrübəsini təkmilləşdirərək şəxsi heyətin qələbə əzmini daha da yüksəltdik. Xalqımızın orduya inamı artdı və vətənpərvərlik ruhunun yüksəlməsinə təkan verildi".

Ümummilli liderimiz Heydər Əliyevin məşhur kəlamını xatırladan Müdafiə naziri Silahlı Qüvvələrimizin nəyin bahasına olursa-olsun, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə hazır olmasını şəxsi heyətin diqqətinə çatdırdı.

"Bunu bizdən dövlətimiz gözləyir və xalqımız tələb edir. Bunun üçün bütün imkanlarımz var. İqtisadi, maddi, hərbi, demoqrafik və digər sahələrdə ehtiyatlarımız düşməndən qat-qat üstündür. Əsgərdən tutmuş generaladək hər birimiz torpaqlarımızın azad edilməsi yolunda üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirərək döyüşlərə hazır olmalıyıq", - deyə Müdafiə naziri qeyd edib.

Müdafiə nazirinin çıxışından sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı xidməti vəzifələrini layiqincə yerinə yetirən bir qrup hərbi qulluqçunun təltif olunması barədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları və Müdafiə nazirinin əmrləri şəxsi heyətə çatdırıldı, təltif olunan hərbi qulluqçulara mükafatlar təqdim edildi.

Müşavirənin sonunda Müdafiə naziri qoşunların döyüşə hazırlıq səviyyəsinin və idarəetmə orqanlarının fəaliyyətinin hərtərəfli yoxlanılmasına dair Baş Qərargaha müvafiq tapşırıqlar verdi.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
çavuş
Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri Tərtərdə sakinlərlə görüşüb



Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhə bölgəsində yerləşən Tərtər rayonunda səfərdədir.

İlk olaraq Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbərliyi Tərtər şəhərində ucaldılan ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub və ehtiramlarını ifadə ediblər.

Müdafiə naziri, Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ilə birgə aprelin 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində Tərtər rayonunun sakinlərinə məxsus ziyan dəyən evlərə baxış keçirib. Nazir sakinlərlə görüşərək onları dinləyib, qayğıları və problemləri ilə maraqlanıb.

Müdafiə naziri rayondakı vəziyyətlə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlarını verib.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri ön xətdə olub



***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.***

Ön xətdə, işğaldan yeni azad edilmiş ərazilərdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş-mənəvi psixoloji hazırlığı və sosial-məişət şəraiti ilə tanış olub.

Düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində qarşı tərəfi müşahidə edən Müdafiə nazirinə ərazidəki əməliyyat şəraiti və müdafiə zolağında görülən işlər barədə məruzə edilib.

Səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyət Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini və Ali Baş Komandanın əmri ilə ölkəmizin ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda hər an döyüşə hazır olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Pakistan Milli Müdafiə Universitetinin heyəti Azərbaycanda səfərdədir

Səfir Şah Məhəmməd Camalın rəhbərlik etdiyi Pakistan İslam Respublikasının Milli Müdafiə Universitetinin 18 nəfərdən ibarət heyəti Azərbaycana akademik səfərə gəlib. Qonaq heyətin tərkibinə Milli Müdafiə Universitetinin "Milli Təhlükəsizlik və Müharibə kursu"nda təhsil alan Pakistan Silahlı Quvvələrinin və dövlət qurumlarının, o cümlədən Oman, Bruney və Nigeriya Silahlı Qüvvələrinin yüksək rütbəli zabitləri daxildir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfərin əsas məqsədi ölkəmizin tarixi və mədəniyyəti ilə tanışlıqdan, Azərbaycan Respublikasının müdafiə və təhlükəsizlik, iqtisadi, daxili və xarici siyasəti, müstəqillik illərində üzləşdiyi problemlər və əldə etdiyi nailiyyətlər barədə geniş məlumat əldə etməkdən ibarətdir.

Aprelin 25-də qonaq heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət edib. Onlar Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev tərəfindən qarşılanıb və rəhbərlər arasında ikitərəfli görüş keçirilib. Daha sonra Silahlı Qüvvələrimiz, onun Hərbi Akademiyası və aprelin əvvəllərində qoşunların təmas xəttində baş vermiş hadisələr barədə qonaqlara ətraflı məlumat verilib.

Səfər çərçivəsində nümayəndə heyətinin bir sıra nazirliklərdə, dövlət xidmətlərində, agentlik və universitetlərdə görüşləri planlaşdırılıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minaatanlardan, həmçinin 122 millimetrlik D-30 haubitsalarından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 130 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Kəngərli, Cəvahirli, Sarıcalı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq düşmənin mövqeləri və səngərlərinə 131 dəfə atəş zərbəsi endirib.

***26 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 113 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan və Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Qușçu Ayrım və Fərəhli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 114 dəfə atəş zərbəsi endirib.

# Fərqlənən heyət

*Aprelin ilk günlərində Azərbaycan Ordusu bir daha nəyə qadir olduğunu öz əməli fəaliyyəti ilə göstərdi. Çox qısa zaman kəsiyində ordumuz uğurlu əməliyyat həyata keçirdi. Düşmən də etiraf etdi ki, onun güclü havadarı olmasa, Azərbaycan əsgərinin qarşısında bir gün də duruş gətirə bilməz. On illərdi torpaqlarımızı işğal altında saxlayan daşnaklar gözlənilməz cavabla üz-üzə qaldılar. Qədim Azərbaycan torpaqlarında köç atmış ermənilər bir daha hiss etdilər ki, Qarabağ onların deyil və onların da olmayacaq. Artıq canlarına vahimə düşüb ki, burada əbədi qala bilməzlər, gec-tez işğal etdikləri torpaqlardan çıxacaqlar.*



Söz yox ki, hər bir qələbənin arxasında gərgin əmək, böyük fəaliyyət dayanır. Bu gün cəbhədə düşmənlə təmas xəttində qazandığımız hər uğur gərgin əməyin nəticəsidir. Ordumuzun bölmələri döyüş hazırlığını artırmaq üçün müntəzəm təlim-məşqlər keçiblər. Bütün ixtisaslar üzrə şəxsi heyətə yetərli vərdişlər aşılanıb.

Bu yaxınlarda cəbhə bölgəsində olarkən son döyüşlərdə fərqlənən bir tankəleyhinə heyətlə görüşdüm. Heyət bacarıqlı, silah haqqında müfəssəl biliklərə malik olan hərbi qulluqçulardan ibarətdir. Zabit Samiddin Zamanov nümunəvi heyət komandiri Hacı Həmətiyevdən razılıqla söz açdı. Bildirdi ki, heyət komandiri döyüş tapşırığını vaxt itirmədən icra etməyə qadirdir. Müəyyən edilmiş hədəfə atəş açmaq üçün komanda veriləndə, o, dərhal hədəfi dəqiq nişan alır və düşmənin əsas atəş mövqeyini susdurur.

Qarşımda əynində qoruyucu jilet olan üç döyüşçü dayanıb. Onlar tankəleyhinə bölmənin haqqında söhbət açdığım heyət üzvləridir. Hər üç döyüşçü qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində fərqlənməyi bacarır. Sərrast atıcı, bacarıqlı heyət komandiri əsgər H.Həmətiyev iştirakçısı olduğu son döyüş haqqında danışmaq istəmədi. Ancaq onun bacarığı və qətiyyəti haqda komandir və silahdaşları ağızdolusu danışdılar. Qorxubilməz döyüşçü olduğunu bildirdilər.

Baş leytenant Zaur Mirzəxanlı söhbətimizə əlavə etdi ki, heyət üzvlərindən Ülvi Məmmədov, Səfər Əlizadə və Etibar Musayev də fərqləniblər. Ülvi Məmmədov döyüşdə yüngül yaralandığı üçün müalicə olunurdu. Onu görə bilməsək də haqqında xoş sözlər eşitdik.

Ordumuzun bütün bölmələrində yüksək ixtisaslı, öz işinin öhdəsindən layiqincə gələ bilən zabitlər var. Biz bunu hər zaman məşğələlərdə, çöl-səhra təlimlərində görmüşük və bu gün də şahidi oluruq. İnanırıq ki, tankəleyhinə bölmənin əsgərləri döyüş əmrini hər zaman yüksək səviyyədə yerinə yetirməklə işğal altında olan torpaqlarımızı azad etmək üçün bilik və bacarıqlarını səfərbər edəcəklər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# “Savaşa hər an hazıram”

***Nümunəvi xidmət edən hərbçilərdən söz düşəndə bölük komandiri kapitan Həmid Əliyev əsgər Mirzəyev Rəşad Mirzə oğlunun adını birincilər sırasında çəkdi. Xidməti haqqında xoş sözlər dedi. Bildirdi ki, bu əsgər bölüyümüzün sıralarına daxil olan gündən bacarığı ilə seçilib. Bir qayda olaraq, xidmətinə məsuliyyətlə yanaşır. Daim postunda sərvaxtdır.***



Əsgər R.Mirzəyev haqqında belə xoş sözlər eşitdikdən sonra onunla görüşmək marağım yarandı. Bölük komandiri ilə posta yollandıq. Əsgərin dayandığı mövqeyə çatdıq. Haqqında danışılan döyüşçü görkəmindən, davranışından elə ilk baxışdan bizdə xoş təəssürat oyatdı. Vaxt itirmədən söhbətə başladıq, asta-asta onun ömür kitabını vərəqlədik.

Əsgər Rəşad Mirzəyev ordu sıralarına Bakının Suraxanı rayonundan çağırılıb. Artıq xidmətinin doqquz aydan çoxu arxada qalıb. Bu müddət ərzində Rəşad silahların sirlərinə yiyələnib, döyüş təcrübəsini artırıb.

- Suraxanı rayonundakı 285 nömrəli orta məktəbdə təhsil alırdım, - deyə əsgər Rəşad Mirzəyev sözə başladı. - Çağırışaqədərki hazırlıq fənnini bizə Elman müəllim tədris edirdi. O, şagirdlərdə bu fənnə qarşı böyük sevgi oyadırdı. Həm dərslərdə, həm də "Şahin" hərbi idman oyunlarında fəal iştirak edirdim. O vaxtlar qazandığım təcrübə bu gün ordu sıralarında da köməyimə gəlir. Vətən qarşısında övladlıq borcumu yerinə yetirirəm. Bu gün yurdumuzu qorumaq, müdafiəsində dayanmaq vəzifəsi biz əsgərlərin üzərinə düşür. Bu şərəfli vəzifəni layiqincə yerinə yetirmək üçün mövqelərimizdə ayıq-sayıq dayanır, yurdumuza keşik çəkirik. Təcrübəli bir əsgər kimi torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə hər an hazıram. İnanıram ki, biz bu döyüşlərdə qalib gələcəyik. Düşmən məhvə məhkumdur, çünki o işğalçıdır!

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi attaşelərin Bakı Assosiasiyası üzvlərinin növbəti toplantısı olub

***Aprelin 26-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin Bakı şəhərindəki Assosiasiyasının növbəti toplantısı keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda Assosiasiyanın daxili məsələləri müzakirə olunub və bir sıra qərarlar qəbul edilib.

Bundan əlavə, Assosiasiyanın üzvlərinə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttindəki cari vəziyyət barədə danışılıb, Ermənistan silahlı bölmələri tərəfindən atəşkəs rejiminin aramsız pozulmasını əks etdirən materiallar, eləcə də məsələyə dair Azərbaycan hökumətinin rəsmi mövqeyi və Müdafiə Nazirliyinin məlumatı təqdim olunub.

Müdafiə nazirinin təsdiq etdiyi Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin 2016-cı il üçün tədbirlər planına əsasən, növbəti fəaliyyətlərin həyata keçirilməsinin gedişi müzakirə edilib.

# “Ermənilərin Tərtəri atəşə tutması nəticəsində 20 yaşayış evinə ziyan dəyib”

Cəbhənin Tərtər istiqamətində hazırda vəziyyət sabitdir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib.

V.Dərgahlı deyib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri ötən gecə Tərtər şəhərini və rayonun ərazisini, eləcə də Qapanlı kəndini 82 və 120 millimetrlik minaatanlardan, həmçinin 122 millimetrlik D-30 haubitsalarından və BM-21 yaylım atəşli reaktiv sistemlərdən atəşə tutub. Nəticədə rayon ərazisində 20 yaşayış evinə ziyan dəyib. Ölən və yaralanan yoxdur.

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri düşmənin atəş nöqtələrinə və hərbi obyektlərinə cavab zərbələri endirib.

Azərbaycan Ordusunun bölmələri əməliyyat şəraitinə nəzarət edir.

Ordu və cəmiyyət

# "Hər anımız Vətən deyir!"



...Axşamdan başlayan yağış səhərə yaxın kəsib. Yer də, göy də özü boyda könül xoşluğudu. Yağışın kəsməsini, günəşin anamız torpağa bu səmimiyyətlə hərarət verməsini göylərin yer üzünə - Tərtərə, tərtərlilərə sayğısı bilirəm. Bir azdan möhtəşəm bir tədbir olacaq: "Hər anımız Vətən deyir!". Elə bil göy üzü də, yer üzü də bu deyimin işığına bağır basır...

Bənzərsiz bir ovqatın cazibəsindəyəm. Bu ovqat Vətən sevgisindən rişələnib, bu sevginin odu-ocağıdı, yanar közüdü, ürəyinin gözüylə baxanlar üçün elə özüdü! Tərtər şəhərində Müdafiə Nazirliyinin və Tərtər rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə keçirilən "Hər anımız Vətən deyir!" adlı kütləvi hərbi şöhrət bayramı da bu ovqatın təcəssümüdü. Hamıya ünvanlanan, hamını eyni amal naminə birləşdirən bu tədbir sanki Dədə Qorqud tövsiyəsidi: Qələbə ərəfəsindəyik. Hər anımız Vətən deməlidi. Hər anımız Vətən deyir, Vətən!..

Bir vaxtlar xalq şairi Məmməd Arazın "İndi gərək hər anımız Vətən desin" misrası məmləkət boyu vətənsevərlərə şair sözü idi. "Hər anımız Vətən deyir" deyimini də şeir misrası bilirəm və sələf-xələf vəhdətinin möhtəşəmliyi üreyimi tellendirir...

...Gecə ermənilər Qapanlı




və Qəzyan kəndlərini toplardan atəşə tutub. Camaat atəşdən uzaqlaşmayıb, atəşin mənbəyinə tərəf yürüş eləyib. Bu, hər anı Vətən deyənlərin qətiyyətiydi! Qocaların da, yeniyetmələrin də, uşaqların da, Qarabağ müharibəsi veteranlarının da, əlillərin də baxışlarından bir mətləb oxunur: "Hər anımız Vətən deyir!" Hamının ürəyi Vətən sevgisinə köklənib. Göy üzü üzə gülür. Göy üzündə bulud nişanəsi yoxdu...



...Tərtərin mərkəzi meydanında azərbaycanlı olmasıyla fəxr eləyən, müasir Azərbaycanın dövlətçilik memarı olan Heydər Əliyevin abidəsi önünə tər güllər qoyulur. Bu, ehtiramdır. Həm də aprel döyüşlərində qazanılan mövqe qələbələrinə görə ulu öndərə gözaydınlığıdı, sülh danışıqları baş tutmasa, torpaqlarımızı döyüşlə alacağımıza verilən vəddi, andiçmədi...

Ön xətdə xidmət edən hərbi qulluqçuların, ictimaiyyət nümayəndələrinin, Qarabağ müharibəsi veteranları və şəhid ailələrinin, gənclərin iştirak etdikləri tədbirdə Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxışında aprelin əvvəllərində cəbhədə baş verən hadisələr zamanı Azərbaycan Ordusunun düşmənə vurduğu ağır zərbələrdən, hərbçilərimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışır. Əminliklə bildirir ki, xalqla ordunun birliyi sayəsində belə hərbi vətənpərvərlik bayramları tezliklə işğaldan azad edilmiş ərazilərimizdə keçiriləcək...

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirir ki, kütləvi hərbi şöhrət bayramının Tərtərdə keçirilməsi hər birimizi qürrələndirir. "Aprelin əvvəlində cəbhədə baş verənlər Azərbaycan Ordusunun qüdrətini təsdiqlədi. Dost da, düşmən də əmin oldu ki, bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Tərtərlilər Ali Baş Komandanın hər əmrinə hazırdır..."

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistləri Ağabala Abdullayevlə Leyla Qəhrəmanovanın ifasında "Vətən, sənin şəhidlərin" mahnısı meydanı dalğalandırır. Böyük coşqudu. "Vətən, sənin şəhidlərin" misrasını hamı ifa edir. Duyumdan düşüncələrə, düşüncələrdən ürəklərə süzülən melodik mətləb birləşdirdiyi minləri vahidləşdirir. Budur, kütləvilik! Kütləvi tədbirin mahiyyəti toplaşanları eyni istəyin pərvanəsi eləyib. Bu pərvanəlik Vətənə ad olan pərvanəlikdi. Həm də bir andan sıyrılıb qələbə gününə aparmağa qadir olan pərvanəlikdi!..

Abdulla Qurbaninin sözlərinə yazılmış bu möhtəşəm mahnı nələrə qadirmiş! Mahnının ifası davam etməkdəykən şəhid anaları, Qarabağ müharibəsi əlilləri meydana axışır. Ürəyinin hökmüylə səsini müğənnilərin səsinə qatmağa! Bu anlara əbədiyyət ömrü verməyə - yaşatmağa!

Çoxmərtəbəli binanın üstündə dayanmış əsgərlərin meydanı iti baxışlarının cazibəsində saxlaması rəmzdi; Tərtəri, bu anlamda Vətəni qoruyuruq! Vətən qorunur! Bu yüksəklik, bu ucalıq hələlik Lələtəpənin rəmzidi. Bu



ucalıq yaxın vaxtlarda Dəlidağın rəmzi olacaq! Xəzərin, Ərgünəşin rəmzi olacaq! Şuşanın rəmzi olacaq!

...Səngərlərdən tədbirə gələn əsgərlərin yerişində on-on beş gün əvvəlin döyüşlərinin



təntənəsi, qalibiyyət ruhu duyulur. Ssenari müəllifinin bu rejissura yozumu tədbirin ümumi mahiyyətinin dərkinə hesablanıb, şübhəsiz: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə, səngərləri əzəli sərhədlərimizə köçürməyə qadirdir!..

Gənc "Şahinlər"in zona yarışının qalibi olmuş tərtərli məktəblilərin meydan boyu dövrə vurması adi mizan deyil. Bu, sabahın hərbçilərinin amalının dünyəviliyinə, dünyəviliyin söykənməli olduğu (və söykənəcəyi!) milliliyə yozulur. Həm də multikulturalizm elementi kimi!..

Toplaşanlara elə gəlir ki, Ağabala Abdullayevin ifasında səslənən "Yenilməz batalyon" mahnısı aprel döyüşlərinin iştirakçılarına həsr edilib. Neçə illər əvvəl yazılsa da! Və qocaların da, yeniyetmələrin də, anaların, nənələrin də, Qarabağ müharibəsi əlillərinin də baxışları bir inama köklənib: Bu ordu yenilməyəcək! Yenilməyəcək!

Günay Qasımovanın ifasında "Vətən anadır" mahnısı Cəfər Cabbarlının bir misrasının təsdiqi gücündədi: "Ana (Vətən), mən sənə rahibəm itaətdə..."...

Elçin Məmmədovun ifasında səslənən "Gəz, oğlum" mahnısı oğlu hərbi xidmətdə olan ataların nəsihəti kimi səslənir. "Vətəninə göz dikənləri əz, oğlum!" kəlmələri sülh danışıqları baş tutmasa, yaxın sabahların şüarıdı. Ata istəyi, ata xeyir-duası Vətənin kəlamı gücündədi...

..."Döyüşən Tərtərdə hər anımız Vətən deyir!" harayı Tərtərin sərhədlərini aşır. Bu haray o üzü vahimələndirir, bu üzə qürur verir...

**"Azərbaycan Ordusu"**

# Veteranlar Azərbaycan dövlətinin yüksək diqqət və qayğısını daim hiss edirlər

**Aprelin 22-də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları ilə görüş keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə komitənin əməkdaşları, veteranlar, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Görüşdə Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) yarandığı və təşəkkül tapdığı dövrə, eləcə də komitənin keçdiyi tarixi yola nəzər salıb. Bildirib ki, AHİK-in tabeliyindəki təşkilatlardan biri kimi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəaliyyəti çox səmərəlidir. Ölkədə mədəniyyət sahəsində çalışan işçilərin hüquqlarının müdafiəsi, onların iş və istirahət şəraitinin daim yaxşılaşdırılması, asudə vaxtlarının səmərəli təşkili və digər istiqamətlərdə ardıcıl tədbirlər görülüb. Bu fəaliyyətin dövlət orqanları və ictimai təşkilatlarla əlaqəli şəkildə həyata keçirilməsi təşkilatın üzərinə düşən mühüm vəzifələrin öhdəsindən bacarıqla gəldiyini göstərir. Sıralarında 55 min üzvü birləşdirən Respublika Komitəsinin bu uğurlarında təşkilatın sədri Cəmilə Səttarovanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Veteranlar onun diqqət və qayğısını daim hiss edir və buna görə ona və təmsil etdiyi təşkilata minnətdardırlar.

D.Rzayev Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının yaradılmasının 110 illiyi münasibətilə təşkilatın əməkdaşlarını təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayaraq deyib: "Mədəniyyət işçilərinin veteranlarla görüşünün səmərəli olacağına və əməkdaşlığın inkişaf edəcəyinə inanırıq. Veteranlarla həmkarlar ittifaqının sıx əlaqəsi gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rol oynayacaq."

D.Rzayev bildirib ki, ulu öndər Heydər Əliyev veteranlara daim diqqət göstərir, onların problemlərinin həllinə qayğı ilə yanaşırdı. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Veteranların sosial problemlərinin həlli, onların ictimai fəallığının artırılması istiqamətində görülən ardıcıl işlər bunun əyani göstəricisidir.

Qeyd edilib ki, Prezident İlham Əliyevin aprelin 20-də imzaladığı "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam dövlətimiz tərəfindən veteranlara göstərilən qayğının növbəti təzahürüdür.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov həmkarlar ittifaqı ilə səmərəli əməkdaşlıqdan, veteranların sanatoriya-kurort müəssisələrində müalicəsi üçün yaradılan şəraitdən danışıb.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Əməkdar Mədəniyyət işçisi Cəmilə Səttarova gənclər üçün örnək olan və şərəfli həyat yolu keçən veteranlarla görüşməkdən məmnunluğunu bildirib. Görüşün qarşıdan gələn 9 May - Qələbə Günü ərəfəsində təşkil olunduğunu vurğulayan C.Səttarova bu münasibətlə veteranları təbrik edib. Diqqətə çatdırıb ki, xalqımız Böyük Vətən müharibəsindəki döyüşlərdə misilsiz rəşadət göstərmiş azərbaycanlıların qəhrəmanlıqlarını həmişə qürur hissi ilə xatırlayır. Bu gün veteranlarımız Prezident İlham Əliyevin diqqət və qayğısı ilə tam əhatə olunublar.

C.Səttarova Respublika Veteranlar Təşkilatının həmkarlar ittifaqı ilə əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyindən məmnunluğunu bildirib. O, mədəniyyət işçilərinin də veteranlara xidmət etməyə hər zaman hazır olduqlarını deyib.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, əməkdar incəsənət xadimi Hafiz Quliyev Vətən uğrunda vuruşan insanlara qayğı göstərməyin, onlara hörmət bəsləməyin hər kəsin borcu olduğunu diqqətə çatdırıb.

Gənclər çıxış edərək veteranların keçdiyi şərəfli döyüş yolunun onlar üçün hər zaman nümunə olduğunu qeyd ediblər.

Sonra Dadaş Rzayeva və Cəlil Xəlilova Respublika Komitəsinin mükafatları təqdim olunub.

Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin qərarı ilə Cəmilə Səttarova "Veteran həmrəyliyi" medalı ilə təltif edilib.

*Gənc zabitlərimiz*

# "Vətənimə xidmətdən fəxr duyuram"



**Vətənpərvərlik insanın ölkəsinə duyduğu sevgi və bağlılığıdır. Və hər kəs öz sevgisi, varlığıyla Vətənini öz şəxsiyyətində, mənində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın.**

Azərbaycan gəncliyinin qarşısında duran ən vacib vəzifələrdən biri məhz orduda xidmət etməkdir. Əgər gənc nəslin nümayəndələri Vətənimizi ürəkdən sevməsələr, vətənpərvər olmasalar, yurdumuz azad və müstəqil yaşaya bilməz.

Haqqında sizlərə söz açacağım leytenant Ağa Ağazadəni hərbi hissədə vətənpərvər, nümunəvi zabit kimi təqdim etdilər. Mühafizə taborunun gənc zabiti sıra meydanında əsgərlərlə məşğələ keçirdi. Onun peşəsinə olan sevgisi keçdiyi məşğələdə və əsgərlərlə münasibətində daha çox hiss olunurdu.

Məşğələ yekunlaşandan sonra imkan yaranır ki, müsahibimi daha yaxından tanıyım. Söhbətimizdə öyrənirəm ki, o, 1991-ci ildə Qəbələ rayonunun Məmmədağalı kəndində dünyaya göz açıb. Müharibə ovqatında böyüyən, hər an müharibəyə hazır olan bir dövlətin vətəndaşı kimi yetişən Ağa hələ uşaq yaşlarında qurduğu bütün xəyallarında özünü zabit kimi canlandırırdı. Məktəbdə də, yaşıdları ilə söhbətlərində də, o, bu arzusunu yorulmadan dilə gətirirdi. Bu xəyalların həyata keçəcəyi günün həsrətilə yaşayan Ağa o zaman Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan böyük qardaşı ilə fəxr edərdi. Qardaşı tətillərdə evə gələn zaman söhbətlərində uzun-uzadı hərb sənətinin özünəməxsusluğu, sirləri haqqında söhbət edər, onun hərbi formasını geyinib saatlarla güzgünün qarşısında dayanardı.

Ağa hərb sənətinə, formaya olan sevgisini indi də heç nə ilə müqayisə edə bilmir və deyir ki, o anlarda bütün varlığımla Uca Yaradandan məni bu arzuma çatdırmasını diləyərdim. Qəlbimin dərinliklərində isə bir səs ucalırdı: "Mən zabit olacağam."

Təsvir etməkdə qələmin aciz, sözlərin isə yetərsiz qaldığı bir istəklə 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədlərini verən Ağa burada ilk hərbi təhsilini aldıqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Motoatıcı ixtisası üzrə hərbi təhsilə yiyələnərək, zabit adına layiq görüldüyü günü həyatının ən əlamətdar günlərindən biri hesab edir.



Zabit A.Ağazadə bildirdi ki, hər zaman Vətənimin adını ucalara qaldırmaq üçün əlimdən gələni edirəm. "Bu gün mən müstəqil Azərbaycanımın zabiti olmağımla fəxr edirəm. Bu adı daşımaq çətin olduğu qədər də şərəflidir. Biz davamlı olaraq əsgərlərlə məşğələlər keçirik. Onlar nizam-intizam qaydalarını dərindən mənimsəyir, daim şux, qürurlu, səliqəli görkəmdə olmağa çalışaraq mötəbər tədbirlərdə Vətənimizi layiqincə təmsil edirlər. Biz fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqəti və qayğısı sayəsində Silahlı Qüvvələrimiz regionun ən güclü ordusuna çevrilib. Ordumuz çox möhkəmdir, maddi-texniki bazası güclüdür, müasir silahlarla təmin olunub. Dəfələrlə güc nümayişi olan hərbi paradlarımızda bunun şahidi olmuşuq. Bu zaman dünyanın, xüsusilə də işğalçı Ermənistanın nəzər-diqqəti Azərbaycana yönəlib. Atəşkəs dövründə yaşadığımız bir zamanda qarşımızda çox mühüm bir vəzifə - torpaqlarımızın düşmən əsarətindən azad edilməsi dayanır. Ali Baş Komandanın əmri ilə qüdrətli ordumuz və igid oğullarımız bu işin öhdəsindən məharətlə gəlmək iqtidarındadır".

Biz daim qeyd edirik ki, vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Ümumiyyətlə, ailədə vətənpərvərlik tərbiyəsi daim öz qürurverici nəticələrini göstərib. Son illər ordumuzda ənənə halını alan bir faktın mövcudluğu çox sevindirici haldır. Belə ki, şəhid olan atanın övladı heç bir qorxu hiss etmədən, əksinə, şəhid övladı olmasından qürur duyaraq onun yolunu fəxrlə davam etdirir. Və ya bir nəsildən olan gənclərin əksəriyyətinin Vətənə olan sevgisi onları hərb sənətində birləşdirir. Bu çox təqdirəlayiq bir hadisədir. Biz hərbi yazarlar da bunu alqışlayır və qəzetimiz vasitəsi ilə davamlı olaraq təbliğ edirik. Ağanın qardaşı baş leytenant Elvin Ağayev, əmisi oğlu leytenant Fəzail Ağayev də bu fikrin bariz nümunəsidirlər. Müsahibim də onların nümunəvi zabit kimi Vətənə xidmət etmələrindən fəxr duyur. Çox yaxın bir zamanda Ali Baş Komandanın əmri ilə işğal altında olan torpaqlarımızı azad edərək qalib ordunun zabitləri sırasında yer alacaqlarına inamlı olduğunu bildirir.

Məhz leytenant Ağa Ağazadə kimi qəlbi Vətən eşqiylə döyünən, hər an torpaqlarımızın müdafiəsinə qalxmağı düşünən oğulların sayəsində ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə bir qüdrətli ordu və vətənpərvər oğullarla Vətənimizin ərazi bütövlüyünü təmin etməyə hər an hazırıq.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Erməni hakimiyyətinin növbəti "soyqırım" şousu

***Ermənistan prezidenti Serj Sarkisyanın "genosid" günü ilə əlaqədar öz xalqına ənənəvi müraciəti əvvəlki illərlə müqayisədə, demək olar ki, heç nə ilə fərqlənmir.***

Bununla belə, onun səsləndirdiyi "erməni xalqı dəyişmişdir" fikri qismən də olsa həqiqəti əks etdirir. Həqiqətən, Yerevanda hakimiyyətdə olduğu dövrdə "Qarabağ klanı"nın öz millətinə aşıladığı "qələbə" eyforiyası tam iflasa uğrayıb. Artıq ermənilər zorla, silah gücünə, terrorla hakimiyyəti ələ keçirmiş cinayətkar dəstənin niyyətini, mahiyyətini başa düşür. Məhz dəyişən erməni xalqı Sarkisyan rejiminin devrilməsini istəyir və nəhayət ki, düşmənlərini məhz daxildə axtarmağa başlayıb.

S.Sarkisyanın "ədalətin qələbə çalması üçün biz mübarizə aparacağıq" fikri isə külək dəyirmanı ilə savaşa bənzəyir. O, odlu-alovlu çıxışı ilə erməni gənclərini "böyük Ermənistan" kimi boş, mənasız ideyalar, xülyalar uğrunda məhvə, dövlətini isə tam iflasa sürükləyir. Cəbhə xəttində baş verən son hadisələr yüzlərlə erməni gəncinin ölümünə, əlil olmasına səbəb oldu. O isə övladlarını itirmiş erməni ailələrini yenə də aldadacağını düşünür.

Ətrafındakı qonşuları ilə münaqişə vəziyyətində olan Ermənistanı heç kim yox, məhz Sarkisyan hakimiyyəti blokadaya salıb, xalqı acından qırdırır, dilənçi vəziyyətində saxlayır. Bütün bunlar hədə-qorxu, yalanlar, iftiralar gücünə həyata keçirilir. Artıq Sarkisyan da son aqibətini, deyəsən, dərk edir. Onun bu vəziyyəti boğulanın saman çöpündən də imdad diləməsinə bənzəyir.

Türkiyənin mövqeyini pisləyən, orada "söz və mətbuat azadlığının" pozulmasından dəm vuran, türk düşmənçiliyindən ağzından köpük tökülənə qədər haray-həşir salan Sarkisyana yaxşı bəllidir ki, 70 min nəfərdən çox Ermənistan vətəndaşı hazırda bir qarın çörək pulu qazanmaq üçün məhz qonşu Türkiyə dövlətinə sığınıb. Ermənistan xalqını biradamlıq, darısqal karserdə saxlayan Sarkisyan və onun kriminal komandası azad fikir, ictimai şüur və təşəbbüslə çıxış edən bütün erməni fəallarını pərən-pərən salıb, həbsxanalara atıb, bir qismi isə məcburən ölkəni tərk edərək xaricə qaçmağa məcbur olub. Əgər belə olmasaydı, ölkədə demoqrafik vəziyyətin faciəvi olmasından Ermənistan siyasi partiyaları yana-yana danışmazdılar.



Cəbhə xəttində son gərginliyin yaşanmasında guya Azərbaycanı günahkar çıxarması isə onun ön xətdə nə baş verməsindən tamamilə bixəbər olmasını göstərir. Aprelin əvvəllərində baş vermiş hadisələrin həqiqətən kim tərəfindən törədilməsini dünyada yalnız bir qrup qəbul etmək istəmir, o da Sarkisyan və onun tərəfdarlarıdır.

O, cəbhədəki çoxsaylı itkilərin statistikasını gizlətməyə cəhd göstərir. Ancaq yaxın günlərdə ölən erməni əsgərlərin analarının başlayacağı etiraz dalğasının onun hakimiyyətinin devrilməsinə təkan verəcəyinə artıq şübhə qalmır və bu, kriminal hərbi rejimin təşviqinə səbəb olub. O, yenə də öz xalqını Azərbaycan əsgəri ilə qorxutmağa çalışır. Əslində, Azərbaycan əsgəri torpaqlarımızı işğal etmiş erməni silahlıları, könüllü adı ilə dünyanın müxtəlif yerlərindən Qarabağa gətirilən terrorçularla, muzdlularla mübarizə aparır.

"Biz yeni genosidə yol verməyəcəyik" fikri isə ikiüzlülüyün, riyakarlığın və arsızlığın son həddidir ki, bunu da Sarkisyanın dilindən eşitmək təəccüb doğurmur. Axı soruşan lazımdır ki, ay yazıq, son 20 ildə erməni xalqını yeni soyqırıma məruz qoyan, terror, şantaj, hədə-qorxu, silahlı çevriliş və basqın yolu ilə Yerevanda hakimiyyətə gələn "Qarabağ klanı" deyilmi? İqtisadiyyatının tənəzzülə uğraması, ölkənin kriminal oliqarxlar tərəfindən bölüşdürülməsi, az da olsa gəlir gətirmək imkanına malik sənaye sahələrinin digər dövlətlərin ixtiyarına verilməsi, eləcə də sərhədlərinin, siyasətinin, müdafiəsinin öz əlində olmaması, demoqrafik vəziyyətin fəlakət həddinə çatması, hətta erməni millətçiliyinin beşiyi sayılan erməni-qriqoryan kilsəsinin də Yerevan hakimiyyətindən üz döndərməsi Sarkisyanın illərlə yürütdüyü yeni genosidin təzahürü deyilmi? Sarkisyan düşdüyü vəziyyətdən, Ermənistanı sürüklədiyi bəlalardan o qədər başını itirib ki, sadə bir şeyi anlamağa belə dərrakəsi çatmır. Başa düşməlidir ki, belə populist çıxışlar onun köməyinə yetməyəcəkdir. Amma onun üçün yenə də gec deyil. Düzgün mövqe sərgiləyib işğal edilən Azərbaycan torpaqlarını tərk etməklə o, öz xalqına normal yaşamağa kömək edə bilər.

Aprelin əvvəlində baş verən hadisələr göstərdi ki, heç şübhəsiz, Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda başladığı yürüş qısa bir müddətdə Ermənistanın hərbi-siyasi rejiminin iflasına və regionda qüvvələr balansının xeyrimizə dəyişməsinə səbəb olacaqdır.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

## Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində dağıdılan evin fotoları





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 24-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində Tərtər rayonunun Şıxarx qəsəbə sakininə məxsus ev dağıdılıb.

## "Münaqişənin yeganə həlli yolu işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının çıxarılmasıdır"

Ermənistanın Müdafiə naziri Seyran Ohanyanın münaqişənin həlli ilə bağlı Azərbaycana güzəştə getməmək mülahizələrinə AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildiriblər: "S.Ohanyanın bizə güzəştə getməyəcəyi haqqında düşündüyü hər qarış Azərbaycan torpağı erməni əsgərlərinin qanı tökülməklə azad olunacaqdır.

Münaqişənin sülh yolu ilə yeganə həlli isə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən birdəfəlik və qeyd-şərtsiz çıxarılmasındadır.

Əks təqdirdə Azərbaycan xalqının təkidi, Ali Baş Komandanın əmri və ordumuzun qüdrəti ilə işğal olunmuş torpaqlarımız düşməndən azad ediləcək, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunacaqdır".

## "Düşmən hücumunun qarşısı alınarkən onun bir döyüş tankı məhv edilib"

Cəbhə xəttində döyüş əməliyyatlarının dayandırılması barədə tərəflər arasında əldə edilmiş razılaşmanı Ermənistan silahlı qüvvələri növbəti dəfə kobudcasına pozub.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdərə istiqamətinə əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirən Ermənistan silahlı qüvvələrinin bölmələri aprelin 23-də axşam saatlarından başlayaraq mövqelərimizi və Tərtər rayonunun təmas xəttinə yaxın bəzi yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutub. Düşmən tərəfi 122 millimetrlik D-30 haubitsalarından da istifadə etməklə mövqelərimiz istiqamətində 20-dək mərmi atıb.

Cəbhənin bu istiqamətində düşmənin hərbi aktivliyinin qarşısını almaq məqsədilə Silahlı Qüvvələrimizin bölmələri tərəfindən dərhal əməliyyat tədbirləri həyata keçirilib.

Aprelin 24-də gecə saatlarında düşmən təmas xəttinə cəmləşdirdiyi tankları atəş xəttinə çıxararaq mövqelərimiz istiqamətində atəş açıb və əlavə qüvvələrin dəstəyi ilə hücuma keçməyə cəhd göstərib. Mövqelərimizə yaxınlaşmaq istəyən düşmən tanklarının qarşısı atəşlə alınıb və bir döyüş tankı heyətlə birlikdə məhv edilib. Bundan dərhal sonra ermənilər Ağdərə istiqamətində geri çəkilməyə məcbur edilib.

Ermənilərin Suqovuşan (Madagiz) hərbi bazası ətrafında yerləşən artilleriya qurğularına da cavab zərbələrindən sonra qarşı tərəf tam susdurulub.

Bölmələrimiz heç bir itki verməyib. Silahlı Qüvvələrimiz əməliyyat şəraitinə və düşmənin hərəkətlərinə tam nəzarət edir.

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində təxribatlar törətməklə düşmən Azərbaycan tərəfini aktiv hərbi əməliyyatlara təhrik etməyə çalışır. Bu cür hadisələr zamanı baş verənlərə görə bütün məsuliyyət Ermənistanın cinayətkar hərbi-siyasi rejiminin üzərinə düşür.

AZƏRBAYCAN ORDUSU

# Xalq yazıçısı Anar:
# "Güclü dövlətimiz, qüdrətli ordumuz var"

***Silahlı Qüvvələrimizin cəbhədə qazandığı uğurlar cəmiyyətdə böyük sevgi və coşqu ilə qarşılanıb. Yaradıcılıq təşkilatlarında da vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsi məqsədi ilə tədbirlər keçirilir, yaxın gələcəkdə görüləcək işlər müzakirə olunur.***



Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Birliyin Hərbi Vətənpərvərlik Komissiyasının və Mətbuat Xidmətinin təşkilatçılığı ilə hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib. Tədbiri Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid açaraq aprelin əvvəllərində cəbhədə gedən döyüşlərin önəmini qeyd etdi: "Bu gün buraya son vaxtlar cəbhə xəttində baş verən hadisələrlə, qazanılan uğurlarla bağlı toplaşmışıq. Azərbaycan yazıçıları erməni təbliğatına qarşı həmişə öz sözlərini deyiblər. Cəbhə xəttindəki son döyüşlər zamanı düşmən sarsıldı. Azərbaycan cəmiyyətində nikbinlik, ruh yüksəkliyi artdı. Ancaq bununla kifayətlənə bilmərik, bu sahədə davamlı təbliğat aparmalıyıq."

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar ordumuzun son günlər cəbhə xəttində qazandığı uğurlardan ürəkdolusu söz açdı: "Bilirsiniz ki, ədəbiyyat bu məsələlərlə bağlı həmişə öndə dayanıb, xalqı səfərbər edib. Son zamanlar cəbhədə baş verən hadisələr, uğurlu döyüşlər göstərdi ki, bizim güclü dövlətimiz, qüdrətli ordumuz var. Başa düşüldü ki, Azərbaycan öz torpağında vuruşur və işi haqdır. Çalışmalıyıq ki, əkstəbliğatımızı ardıcıl aparaq. Bunun üçün ən önəmli silahlardan biri sözdür."

Azərbaycan Yazıçılar Birliyinin Hərbi Vətənpərvərlik Komissiyasının sədri, bir çox sevilən hərbi marş və mahnıların bəstəkarı Şahin Musaoğlu çıxışında komissiyanın məqsəd və məramından danışdı:

- Məqsədimiz hərbi vətənpərvərlik mövzusunu ictimaiyyətin nəzərində önə çəkmək və gündəmdə saxlamaqdır. Müharibə meydanında informasiya və ideoloji mübarizə də önəmlidir. Böyüməkdə olan nəsillərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması çox mühüm məsələdir. Gənc nəslə hərbi vətənpərvərlik hisslərinin aşılanması üçün orta təhsil müəssisələrində, həmçinin hərbi hissələrdə tədbirlərin keçirilməsi təqdirəlayiq ənənədir.

Ehtiyatda olan general-mayor Məhəmməd Sarıyev, şairlərdən Ramiz Duyğun, Oktay Rza, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli, Milli Qəhrəman Asif Məhərrəmov adına İctimai Birliyin sədri Ədalət Məhərrəmov, "Əsgər Ailəsi" cəmiyyətinin sədri Roza Əliqızı və başqaları çıxış edərək mövzu ətrafında fikirlərini bölüşdülər, təkliflərini bildirdilər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Sənayesi Nazirliyinin "DSA-2016" sərgisində nümayiş etdirdiyi məmulatlar maraqla qarşılanıb



***Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar aprelin 18-dən 21-dək Malayziyanın paytaxtı Kuala-Lumpurda keçirilən "DSA-2016" XV Asiya müdafiə xidmətləri sərgisində nümayiş etdirilib.***

Müdafiə sənayesi naziri Yavər Camalovun başçılığı ilə geniş tərkibli nümayəndə heyəti sərgidə iştirak etmək üçün Malayziyada səfərdə olub.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, dünyanın 60 ölkəsindən 1200-dən çox şirkətin qatıldığı sərgidə yalnız 29 ölkə, o cümlədən Azərbaycan milli pavilyon ilə təmsil olunub.

MSN sərgidə müxtəlif növ atıcı və yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, zirehli texnikalar, müxtəlif çaplı aviasiya bombaları, pilotsuz uçuş aparatları, atıcı silahlar üçün çeşidli döyüş sursatları, kiçik çaplı avtomatik tapançalar üçün döyüş sursatları, optik cihazlar və s. olmaqla ümumilikdə 220 adda müdafiə təyinatlı məmulat nümayiş etdirib. Nazirliyin nümayiş etdirdiyi məmulatlar böyük maraqla qarşılanıb.

Sərgi çərçivəsində Müdafiə Sənayesi naziri Yavər Camalov Türkiyənin milli müdafiə nazirinin müavini Şuay Alpay, Quru Qoşunlarının qərargah rəisi İhsan Uyar, Silahlı Qüvvələrin Gücləndirmə Fondunun baş direktoru Orhan Akbaş, Pakistanın müdafiə məmulatları federal naziri Rana Tanveer, Malayziyanın Müdafiə naziri Hishammuddin Hussein, Çexiyanın Müdafiə nazirinin müavini Thomas Kuctan və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirib.

Görüşlərdə mövcud əlaqələrin inkişafı və prioritet istiqamətlərinə dair müzakirələr aparılıb. Tərəflər müdafiə sənayesi üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səylərin artırılmasının zəruriliyini vurğulayıblar.

Sərgidə nazirliyin əməkdaşları tərəfindən tədbirə qatılan digər ölkələrin nümayəndə heyətlərinə sentyabrda Azərbaycanda keçiriləcək "ADEX-2016" ikinci beynəlxalq müdafiə sərgisi ilə bağlı məlumat verilib və dəvətlər çatdırılıb.



# Naxçıvanda idman yarışı

Naxçıvan şəhərində yerləşən İlham Əliyev adına Olimpiya İdman Kompleksində təşkil olunan birinciliyə Dövlət himninin səsləndirilməsi ilə başlanılıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimləri tərəfindən idarə edilən birincilikdə 23 çəki dərəcəsində 14 komanda mübarizə aparıb və 130 pəhləvan döşək üzərində öz güclərini sınayıb. Muxtar Respublikanın Gənclər və İdman Nazirliyi ilə Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdiyi yarış 5 gün davam edib.

Pəhləvanlarımızın mübarizəsində qaliblər həm komanda hesabında, həm də şəxsi birincilikdə müəyyənləşdirilib.

Qaliblər ənənəyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən mükafatlandırılıb. Belə ki, fərdi hesabda qalib gələn hərbi qulluqçular fəxri fərmanla təltif ediliblər. Qalib kürsünün ilk üç pilləsini fəth edən komandalara isə diplomlar təqdim edilib.

Yarışlardan sonra yunan-Roma güləşi üzrə birinci yerə layiq görülən komandanın rəisi zabit Elman Cabbarovla həmsöhbət oldum. Müsahibim bildirdi ki, müxtəlif idman növləri üzrə keçirilən yarışlarda şəxsi heyət böyük həvəslə iştirak edir. "Bu dəfə yunan-Roma güləşi üzrə komanda hesabında birinci yeri götürdük. Fərdi hesabda isə hərbi qulluqçularımızdan əsgər Həsən Abdullayev, Əmrah Məmmədov, Teymur Tapdıqlı, Roman Quliyev və leytenant Vüsal Məmmədov daha yüksək nəticə göstərərək adlarını qaliblər siyahısına yazdırmağı bacardılar.

Digər qalib komandanın rəisi zabit Mahir Cavadov isə söhbətimizdə bildirdi ki, bizim bu gün sevincimiz ikiqatdır. Çünki həm sərbəst güləş, həm də cüdo üzrə komanda hesabında birinci yerin sahibi olduq. Təbii ki, fərdi hesabda da fərqlənən idmançılarımız vardır. Onlardan əsgər Məhərrəm Quliyevi, Ruhin Əliyevi, Fərid Yəhyayevi, Xaliq Niftəliyevi, kiçik çavuş Məhəmməd Ömərovu, Məcid Rzayevi, gizir Elşən Mustafayevi və leytenant Natiq İsgəndərovu qeyd etmək olar.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Aydın ORUCOVUNDUR**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Tağıyeva Sevinc Tofiq qızına 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 230
Nüsxə 4700